Səh. 2 AZƏR MUSAOĞLU YAZIR...
Səh. 5 AYGÜL İSAYEVA YAZIR...
Səh. 2 PARLAMENT SEÇKİLƏRİNDƏ ÜÇ AZƏRBAYCANLI NAMİZƏD QALİB GƏLİB
Səh. 5 HƏYAT ADLI FİLMDƏN KADRLAR
Səh. 3 HACI BƏKİROĞLU YAZIR...
Səh. 6 İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA
Səh. 4 MÜƏLLİMLƏRİN KARYERA YÜKSƏLİŞİ SXEMİ ƏVVƏL VƏ İNDİ
Səh. 7 QARA DƏNİZİN YENİ LİMANI – ANAKLİA

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 NOYABR
2020-Cİ İL
№016 (120)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTANDA 80 MİNƏ YAXIN İNSAN KORONAVİRUSA YOLUXUB



Gürcüstanda koronavirusa yoluxanların sayı 79678 nəfərə çatıb. Bu haqda www.stopcov.ge saytında bildirilir.

Noyabrın 15-nə olan son məlumatlara əsasən, ölkədə koronavirusdan ölənlərin sayı 703 nəfər, sağalanların sayı isə 62061 nəfər təşkil edib.

Ölkə üzrə karantin rejimində 2326 nəfər, stasionar nəzarətdə 5592 nəfər olub. COVID mehmanxanada olan şəxslərin sayı 3280 nəfər, xaricdən müalicə üçün ölkəyə gətirilən Gürcüstan vətəndaşlarının sayı isə 41 nəfər olaraq göstərilir.

Gürcüstanın Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidzenin bildirdiyinə əsasən isə, noyabrın 13-nə kimi Gürcüstanda 4 666 tibb işçisi koronavirusa yoluxub.

Mərkəz rəhbəri qeyd edib ki, bu göstərici ümumi yoluxanların 6,4 %-ni təşkil edir və xəstəliyə tutulan səhiyyə işçiləri arasında həkim və tibb bacıları da var.

Amiran Qamkrelidze həmçinin Gürcüstanın koronavirusa qarşı peyvənd üçün ilk 4 milyon dolları köçürdüyünü də bildirib.

Onun sözlərinə görə, ölkə 700 min nəfər üçün vaksin sifariş edib.

"Bunun dəyəri 17 milyon dollara yaxındır. Preparat təsdiqlənəndən sonra Gürcüstan onu əldə edəcək və ilk növbədə risk qrupuna daxil olan şəxslərə peyvənd vurulacaq", - deyə mərkəz rəhbəri bildirib.




## XARİCİ İŞLƏR NAZİRİ: SÜLH PROSESİNDƏ ƏMƏKDAŞLIĞA HAZIRIQ



Xarici işlər naziri David Zalkaliani "İmedi" telekanalına müsahibəsində bildirib ki, Gürcüstan bölgədə baş verən prosesləri çox diqqətlə izləyir.

Onun sözlərinə görə, Rusiya və Türkiyənin iştirakı ilə razılığın əldə edilməsi Azərbaycan və Ermənistanın seçimi olub.

"Tərəflərə hərbi əməliyyatlara qısa müddətdə son qoymaq vacib idi. Bununla bağlı Gürcüstan mövqeyini çox açıq şəkildə ifadə edib. Ümid edirəm ki, bu sülh sazişi tərəflərə bölgədə davamlı sülh yaratmaq imkanı verəcək", - nazir deyib.

D.Zalkaliani Gürcüstanın sülh prosesindəki rolu ilə bağlı təklifinin qüvvədə qaldığını da qeyd edib: "Bu istiqamətdə həm strateji tərəfdaşımız olan Azərbaycan, həm də ən yaxın dostumuz və qonşumuz olan Ermənistanla əməkdaşlığı davam etdirməyə hazırıq".

## PARLAMENT SEÇKİLƏRİNİN İKİNCİ TURU NOYABRIN 21-İ 17 DAİRƏDƏ KEÇİRİLƏCƏK




Parlament seçkilərinin ikinci turu noyabrın 21-də 17 birmandatlı dairədə keçiriləcək. Bu barədə Gürcüstanın Mərkəzi Seçki Komissiyasından (MSK) bildirilib.

Bölgələrdə 9, Tbilisidə isə 8 dairədə seçkilərin birinci turunda heç bir namizəd 50%-dən çox səs əldə edə bilməyib.

İkinci turun təyin olunduğu dairələr:

Tbilisi: Mtatsminda və Krtsanisi, Vake, Saburtalo, İsani, Samqori, Didube-Çuqureti, Nadzaladevi, Qldani.

Bölgələr: Telavi-Axmeta-Kvareli-Laqodexi, Mtsxeta-Duşeti-Tianeti-Kazbeqi, Rustavi, Xaşuri-Kareli, Kutaisi, Zestafoni-Baqdati-Tercola-Tkibuli, Batumi, Xulo-Şuaxevi-Keda-Xelvaçauri, Zuqdidi.

*Mənbə: newsbureau.ge*



# BEYNƏLXALQ TOLERANTLIQ GÜNÜ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Noyabrın 16-sı Beynəlxalq Tolerantlıq Günü kimi qeyd edilir. Qeyd edilir deyəndə ki, "quş qoymaq" xətrinə yola verilir – elə ölkəmizdə də, dünyada da. Çünki sözün həqiqi mənasında tolerant olmaq, necə deyərlər, hər kişinin işi deyil, nər kişinin işidir.

Nədir tolerantlıq? Latın sözü olan tolerantia dözüm deməkdir. Lüğətdə fərqli fikirlərə, mövqeyə, rəylərə, adət-ənənələrə, inanclara, həyat tərzinə, dünyagörüşünə dözümlü münasibət kimi izah edilir. İzah edilir... əməl edilmir.

Çünki, yenə təkrar edirəm, tolerant olmaq üçün ya gərək anadan belə doğulasan, ya da ki, xala xətrin qalmasın, öhdəliklər götürəsən.

Məsələn, biz çox tolerant xalqıq, hətta deyərdim ki, bizdə tolerantlığın dozası normadan yuxarıdır. Bu isə, anomaliyadır.

Özü də bizim bu tolerantlığımız özgələrədir. Özümüzə qarşı isə tolerant deyilik. Özgələrin fikirlərinə, mövqeyinə, rəylərinə, adət-ənənələrinə, inanclarına, həyat tərzinə, dünyagörüşünə və sairinə tolerant, dözümlü olduğumuz halda, ahəng qanunu pozulmuş, vurğusu bir az qüvvətli tələffüz edilən bir balaca sözümüz belə özümüzə xoş gəlmir, özümüzə qarşı dözümsüz oluruq.

Tolerantlığımızın bu cür qütbləşməsinin səbəbini axtarıb-araşdırsaq bəlkə də ibtidai icma quruluşuna qədər gedib çıxarıq.

Özümüzdə dözümsüz olduğumuz şeylərə başqalarında dözümlü oluruq.

Özümüzdə bəyənmədiklərimizi başqalarında bəyənirik.

Başqalarına yaraşdırdığımızı özümüzə yaraşdırmırıq.

"Biz dözümlü xalqıq" ifadəsi bəlkə də tolerant sözündən daha qədimdir. Sadəcə olaraq, biz tolerantlıq sözünə dözümlülük sözündən daha çox tolerantıq. Axı, yeni olan daha maraqlıdır, daha çox dəbdədir, müasirlik deməkdir, cəlbedicidir, "abrazavonskilikdir".

Mən əsla tolerantlığın əleyhinə-məleyhinə deyiləm, haşa! Sadəcə olaraq başa düşməyə çalışıram, bizlərə tolerantlığı aşılayanlar niyə özləri tolerant olmurlar?.. Tolerantlıq bu qədər yaxşı zaddırsa götürün özünüzə qalsın, cənablar. Biz onsuz da əyyami-qədimdən dözümlü xalqıq, yenə də dözərik.

Tolerantlıq da, inteqrasiya da qarşılıqlı olmalıdır. Mən sənə qarşı tolerant olum, sən də mənim bu sadəlövhlüyümdən istifadə edərək başıma min oyun aç, mən sənə inteqrasiya olum, sən də məni assimilyasiya elə... bu, cənablar, uşaq başı qatmaqdan başqa bir zad deyil.

Tolerant olmalıdırsa bütün dünya olmalıdır. Təkcə bizim tolerantlığımız dünyanı xilas edən deyil. Tolerantlıqda da ifrata varmaq ziyan gətirər.

Bütün dünyanın tolerant olması ümidi ilə Beynəlxalq Tolerantlıq Gününüzü təbrik edirəm, hörmətli dözümlülər!

# PARLAMENT SEÇKİLƏRİNDƏ ÜÇ AZƏRBAYCANLI NAMİZƏD QALİB GƏLİB



Gürcüstanda keçirilən parlament seçkilərində 3 azərbaycanlı namizəd qalib gəlib. Onların 2-si – Zaur Darğallı və Savalan Mirzəyev hakim Gürcü Arzusu Partiyasından seçilib.

Z.Darğallı Marneuli-Qardabani dairəsi üzrə majoritar qaydada, S.Mirzəyev isə proporsional siyahı üzrə deputat mandatı əldə edib.

Qanunverici orqana keçən üçüncü azərbaycanlı Abdulla İsmayılovdur. O, "Vahid Milli Hərəkat – Güc birlikdədir" müxalif birliyin proporsional siyahısında 17-ci yerdə olub. A.İsmayılovun qanunverici orqanda təmsil olunub-olunmayacağı hələ məlum deyil. Belə ki, müxalif birlik seçkilərin qeyri-legitim olduğunu iddia edərək nəticələri tanımadığını bildirib.

Qeyd edək ki, Gürcüstanın öncəki parlamentində 4 azərbaycanlı deputat olub.

# KORONAVİRUSDAN ÖLƏNLƏRİN DƏFN QAYDASI DƏYİŞİB



Gürcüstanda koronavirusdan ölən şəxslərin dəfni ilə bağlı yeni protokol hazırlanıb.

Bu barədə ölkənin Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri, baş epidemioloq Amiran Qamkrelidze bildirib.

Onun sözlərinə görə, yeni qayda ilə vəfat edən şəxsin dəfn olunması üçün ailəsinə 72 saat vaxt veriləcək.

"Koronavirusdan dünyasını dəyişənlər dərhal deyil, 72 saat ərzində dəfn olunacaq. Yoluxma hallarının artmaması üçün dəfnlə və ya digər ritualla bağlı kütləvi tədbirlərdən çəkinmək lazımdır", - deyə baş epidemioloq bildirib.

# BÖYÜK ŞƏHƏRLƏRDƏ ƏLAVƏ MƏHDUDİYYƏTLƏR TƏTBİQ OLUNUR



Gürcüstanın Dövlət Qurumlarıarası Koordinasiya Şurasının qərarına əsasən, noyabrın 9-dan Tbilisi, Kutaisi, Batumi, Rustavi, Zuqdidi, Qori və Poti kimi iri şəhərlərdə saat 22:00-dan 05:00-dək piyadaların və avtonəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılır.

Məhdudiyyətlər beynəlxalq yük daşımalarına şamil olunmur.

Adıçəkilən şəhərlərdə uşaq bağçaları da müvəqqəti olaraq bağlanıb, həmçinin ictimai nəqliyyatda sərnişin sıxlığının aradan qaldırılması üçün xüsusi tədbirlər görülür.

# RESTORANLARIN FƏALİYYƏTİNƏ MƏHDUDİYYƏTLƏR QOYULUB



Gürcüstanda restoranların fəaliyyətinə məhdudiyyətlər qoyulub.

Bu barədə ölkənin baş nazirinin müavini Maia Tskitişvili keçirdiyi brifinqdə bildirib.

Nazir müavini bildirib ki, restoranlar saat 22:00-dək xidmət göstərəcək.

Qayda noyabrın 3-dən qüvvəyə minib.

## TÜRKİYƏ GÜRCÜSTANA YENİ HƏRBİ ATTAŞE TƏYİN EDİB



Türkiyənin Gürcüstandakı səfiri xanım Fatma Ceren Yazqan ölkənin müdafiə naziri İrakli Qaribaşvili ilə görüşüb.

Bu barədə Gürcüstanın Müdafiə Nazirliyi məlumat yayıb.

Səfir Türkiyənin Gürcüstana yeni təyin etdiyi hərbi attaşe Burak Altıneri nazirə təqdim edib.

Tərəflər iki ölkə arasındakı əməkdaşlıq məsələlərini müzakirə ediblər.

İ.Qaribaşvili türkiyəli səfirə hərbi sahədə maddi-texniki dəstəyə görə minnətdarlıq edib. Görüşdə məhsuldar əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvarlıq ifadə olunub.

## AZƏRBAYCAN SƏFİRİ: "GÜRCÜSTANDAKI SOYDAŞLARIMIZ DA AZƏRBAYCANIN ZƏFƏRLƏRİNƏ SEVİNİRLƏR"

"Bu gün Azərbaycan üçün ikiqat bayramdır. Həm zəfər bayramı, həm də Dövlət Bayrağı Günü qeyd olunur".

Bunu noyabrın 9-u Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev jurnalistlərə açıqlamasında deyib.

O, Gürcüstanda yaşayan soydaşlarımızı bayramlar münasibətilə təbrik edib: "Yüzlərlə soydaşımız səfirliyə zəng vuraraq Azərbaycan dövlətinə dəstəklərini ifadə edirlər, qələbə sevinclərini bölüşürlər. Ümidvarıq ki, qələbə günlərimiz çox olacaq, işğal altındakı bütün torpaqlarımız azad olunacaq və biz əzəli torpaqlarımıza qayıdacağıq".

Səfirin sözlərinə görə, Gürcüstandakı soydaşlarımız da Ordumuz və Ali Baş



Komandan İlham Əliyevin ətrafında sıx birləşiblər: "Gürcüstanın müxtəlif bölgələrində yaşayan azərbaycanlılar Azərbaycanla həmrəylik və dəstək göstərirlər. Buna görə soydaşlarımıza Azərbaycan dövləti adından təşəkkür edirik".

*Mənbə: report.az*

## YTB BAŞQANI ABDULLAH EREN AZƏRBAYCANDA SƏFƏRDƏ OLUB



Yurtdışı Türkler ve Akraba Topluluklar (YTB) başqanı Abdullah Eren 3 noyabr tarixində Bakıda Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovla görüşüb.

Görüşdə komitə sədri İzmirdə baş vermiş zəlzələyə görə kədərləndiyini bildirib və həmkarına başsağlığı verib. Həmçinin türk diasporasının xaricdə Azərbaycanla çiyin-çiyinə mübarizə apardığını ifadə edən F.Muradov bu dəstək üçün Türkiyəyə təşəkkür edib.

A.Eren Azərbaycanın hər vaxt yanında olduqlarını dilə gətirərək iki ölkə diasporalarının ortaq hərəkət etməsinin əhəmiyyətli olduğunu bildirib.

"Yeni Yol" Anadolu Agentliyinə (AA) istinadən xəbər verir ki, A.Eren mətbuata verdiyi açıqlamada Azərbaycan torpaqlarının 30 ildir işğal altında olduğunu deyib. İşğalın sona çatması ilə əlaqəli olaraq BMT Təhlükəsizlik Şurasının bir neçə qərarına baxmayaraq beynəlxalq ictimaiyyətin addım atmadığını bildirən A.Eren, Azərbaycanın Ermənistanın artan hücumlarına cavab vermək məcburiyyətində qaldığını deyib:

"Ermənistan dinc əhaliyə hücum etdi, lakin Azərbaycan belə bir şey etmədi, etməyəcək. Aralarında qadın və uşaqların da olduğu çox sayda vətəndaş şəhid oldu. Bununla bağlı dünyadan heç bir səs çıxmadı. Halbuki Azərbaycan belə bir şey etmiş olsa, çıxacaq səsi siz təxmin edin.

Dünya ictimaiyyətinin Ermənistanın hücumlarına qarşı göstərdiyi ikili standartı qınayırıq. Türkiyə Azərbaycanın yanındadır. Biz də təşkilat olaraq Azərbaycanın yanındayıq. Hər yerdə həmrəylik içində, çiyin-çiyinəyik. Azərbaycanın haqlı mübarizəsində qazanacağına ümid edirik. Dost və qardaş Azərbaycanın yanında olduğumuzu bir daha təsdiq etmək istəyirəm".

YTB başqanı Abdullah Eren, Diaspora İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Gəncə Qubernatoru Niyazi Bayramov və Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk 4 noyabr tarixində Gəncə şəhərinə səfər edərək Ermənistanın ballistik mərmilərlə hücum etdiyi və 26 vətəndaşın həyatını itirdiyi binaların olduğu əraziyə qərənfil qoyaraq dualar ediblər.

Fuad Muradov və Abdullah Eren, həmçinin, Tovuz döyüşlərində şəhid olan general Polad Həşimov və Qubadlıda şəhid olan polkovnik Şükür Həmidovun ailəsini ziyarət ediblər.

## NƏ YAZMAQ İSTƏYİRDİM, NƏ ALINDI...



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Öncəliklə Azərbaycan xalqını, yurdları düşmən tapdağından geri alınan azərbaycanlıları və eləcə də dünya azərbaycanlılarını qələbə münasibəti ilə səmimi qəlbdən təbrik edirəm. Bu savaş onların otuz illik həsrətində olduqları torpaqları uğrunda apardıqları haqlı mübarizələri idi. Bu qələbəyə nəinki təkcə Azərbaycan, o cümlədən dünya azərbaycanlıları sevindi, qələbəni qeyd etdi. Bəli, bu uğurda hər iki tərəfdən də itkilər oldu. Azərbaycan əsgəri öz torpağı uğrunda şəhadətə yüksələrkən başqasının torpağına sahib çıxmaq istəyənlərsə leş olub getdi. Daha artıq itki olmasın deyə Azərbaycan tərəfi iki dəfə atəşkəsə razı olsa da qarşı tərəf hər ikisində də xəyanət edərək atəşkəsi pozdu. Hətta Gəncə və Bərdədə dinc əhalini hədəf alaraq qadınların və uşaqların da həlak olmasına səbəb oldular. İnanıram ki, Azərbaycan hökuməti bu qətliamı beynəlxalq dərəcədə tanıtdıra biləcək.

Bəli, bu bir müharibədir və müharibə qurbansız olmur. Heç kim müharibənin tərəfdarı deyil. Ancaq vətənini sevən hər bir vətəndaş vətən uğrunda canından keçməyə hazırdır. Bu uğurda həlak olanlar da xalqın qəlbində əbədi yaşayırlar. Çünki üzərində gəzdikləri torpaqlar məhz onların qanı, canı bahasına qorunmuşdur. Müzəffər Azərbaycan ordusu da qanı və canı bahasına itirilmiş torpaqlarını geri qaytardı. Məlum olduğu kimi, igid əsgərlərin Şuşanı almalarından sonra dünya Azərbaycanın gücünü gördü və müəyyən addımlar ataraq atəşkəsin əldə olunmasına nail olundu. Bəli, deyəcəksiniz ki, bunlar bildiyimiz şeylərdir, əziyyət çəkib yazmağına nə hacət vardı ki? Doğru da buyurursunuz. Mən müharibəni, gedişatı şərh etməyə çalışmıram və buna heç niyyətim də yoxdur. Çünki mən nə politoloqam, nə də hərbçiyəm ki, bu xüsuslardan anlayım və şərh yazım. Ancaq gəl gör ki, danışmağa sözü olmayan, dərsi onlayn keçən, virusdan təcriddə qalan, nə bilim daha kimlər-kimlər müharibə şərhçisinə çevriliblər.

Bərbərə gedirsən bərbər, xəstəxanaya gedirsən həkim, maşın təmirçisinə gedirsən usta işini buraxıb başlayır sənə Azərbaycan torpaqlarına gələn rus və türk əsgərlərinin vəzifələrini, tutacaqları postları və ya imzalanan anlaşmanın təzahüratını şərh etməyə. Bir yandan da erməni vandalizmini görməyib, Şuşada azan oxuyanları vandal adlamdırmaqları, mədəniyyət aşiqi çıxmaları, abidə qoruqçusu kəsilmələri və verdikləri proqnozlar qulaqlarımızı yara elədi. Bir bunlara deyən yoxdur ki, ay adam, niyə gedib işinlə-gücünlə məşğul olmursan? Sən siyasətçilərdən, hərbçilərdən çox bilirsən məgər?

Bu çətin günlərdə özümüzün korona qədər dərdimiz var. Gəlin bir az ondan danışın. Qarabağ məsələsini Putin, İlham və Ərdoğan üçlüyü həll edəcək. Bir gündə üç mindən çox yoluxma olur və biz hələ də bu xəstəliyi "bir oyun" zənn edirik. Əgər politoloq olmaq niyyətiniz varsa elə öz ölkəmizdə keçən ayın sonunda keçirilən parlament seçkilərindən danışın, xalqı məlumatlandırın. Heç olmasa öz ölkənizə bir xeyriniz dəysin. Onsuz da nə Putin, nə də cənab Əliyev sizin planınızla hərəkət edən deyil.

Nə isə. Dərd bir deyil ki. Nə yazmaq istəyirdim, nə alındı... Çox şükür Qarabağ bir yolla həll olundu, qaldı bizim Abxaziya və Osetiya. İnşallah ki, yaxın zamanlarda o problem də həllini tapar.

## ŞAGİRDDƏN FƏRQLİ OLARAQ MÜƏLLİM DİSTANT TƏHSİL FORMASI TƏLƏB EDƏ BİLMƏZ



Şagirdlərdən fərqli olaraq müəllimlərin distant təhsil forması seçmək hüququ yoxdur. Bu haqda Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyindən bildirilib.

Müəllimlərin bir qisminin yaş, bəzilərinin isə sağlamlıq probleminə görə risk-qrupunda olmasını və ictimai yerlərdə hərəkət etməsinin daha təhlükəli olmasını nəzərə alaraq bir çox pedaqoqlar bizə sualla müraciət ediblər ki, məktəbdə davamiyyətli təhsil prosesi olan zaman müəllimin distant təhsil forması seçmək hüququ varmı. Qeyd olunan sualı biz də nazirliyə ünvanladıq və cavab aldıq ki, müəllimin sağlamlıq probleminin olub-olmamasına, yaxud risk qrupuna aid olmasına baxmayaraq belə bir seçim etmək hüququ yoxdur.

Bildiyimiz kimi, davamiyyətli təhsil prosesi aparılan məktəblərdə valideynlər şagirdin distant təhsilə keçirilməsini tələb edə bilər. Qeyd olunan tələbin qane edilməsi isə məktəblər üçün məcburidir.

*Mənbə: etaloni.ge*

## 5 KREDİTLİK TƏLİMDƏN KEÇMİŞ MÜƏLLİMLƏRİN STATUSU VƏ ƏMƏK HAQQI ARTIRILACAQ



5 kreditlik təlimdən keçmiş müəllimlərin statusu avtomatik olaraq qaldırılacaq. Bu haqda "etaloni.ge"yə Müəllimlər Evindən bildiriblər.

Müəllimlərin Milli Peşəkar İnkişafı Mərkəzindən bildirilib ki, təlim keçdikdən sonra məlumat avtomatik şəkildə bazada təsvir olunur və statusun qaldırılması üçün konkret müddətin keçməsinə ehtiyac yoxdur.

Müəllimlər Evinin məlumatına görə, 5 kreditlik təlimi uğurla başa vurduqdan sonra 2 048 müəllimin statusu qalxıb. Təlimlər yenidən fəal rejimdə aparılır və daha 3 561 müəllim üçün də planlaşdırılıb.

# MÜƏLLİMLƏRİN KARYERA YÜKSƏLİŞİ SXEMİ ƏVVƏL VƏ İNDİ

Müəllimlərin peşə və karyera inkişafı sxemindəki dəyişikliklər pedaqoqların bir qisminin narazılığına səbəb olub. Onların qiymətləndirməsinə görə, peşə inkişafı üçün atılacaq addımlar indi daha da çətinləşdirilib.

Bildiyiniz kimi, əvvəlki sxemlə dörd status müəyyən edilmişdi: təcrübəçi, baş, aparıcı və mentor müəllim. Bu dəfə sxemdə yalnız üç status qalıb: baş, aparıcı və mentor.

Təcrübəçi müəllim baş müəllim statusu qazanmaq üçün sonrakı yollardan birini seçməli idi:

Pedaqoqlar fənn və ixtisas kompetensiyasını 10-10 kreditlə təsdiqləsələr baş müəllim statusunu asan qazanacaqdılar.

Baş müəllim statusunun verilməsi üçün təcrübəçi müəllim 19 kredit toplayırdı və onun 4 krediti müəllimi qiymətləndirən qrupun təcrübəçi müəllimə keçdiyi dərsə görə verdiyi qiymətləndirmə olmalı idi (hər dərs üçün 2 kredit). 15 kredit isə fənn və ixtisas kompetensiyasının təsdiqlənməsindən toplanmalı idi.

Təcrübəçi müəllimlər fənn və ixtisas kompetensiyasını təsdiqləmək məcburiyyətində idi. Əgər təcrübəçi müəllim 15 krediti tam toplaya bilmirdisə ona baş müəllim statusu qazanmaq üçün lazım olan kreditləri fəallıqlarla doldurmaq imkanı verilirdi.

Təcrübəçi müəllimlər imtahanda 1,4,7,10 kredit toplaya bilərdilər. Əgər imtahanda kifayət qədər kredit toplamasalar müəllimlər kreditləri müxtəlif fəallıqlarla məktəbdə toplamağa davam edirdilər. Məsələn, il ərzində klub fəaliyyətini idarə etmək 1, semestr ərzində fasilitatorluq 1,5, xüsusi təhsilə ehtiyac duyan şagirdlə il ərzində çalışmaq 1-2, semestr ərzində dərnək fəaliyyətini idarə etmək 0,5 kreditdir və s.

Bu dəfə təcrübəçilərə statuslarını yüksəltmək imkanı payızda veriləcək. Onlar bir daha fənn kompetensiyasını təsdiqləmək üçün imtahan verməli olacaqlar. Baş müəllim statusu qazana bilmədikləri halda isə onlar 2020-2021-ci tədris ilinin sonuna qədər məktəbdə qalacaqlar. Sonrakı tədris ilindən isə onların yerinə vakansiya elan olunacaq. Yeni sxemə əsasən, təcrübəçi statusu ləğv olunub, pedaqoqlar bu statusla məktəbdə qala bilməyəcəklər.

Təcrübəçilərdən əlavə, məktəbdə "axtaran" statusu ilə işlə təmin olunanlar var. Onlar baş müəllim statusu qazanmaq üçün Müəllimlər Evi tərəfindən təklif edilmiş "axtaran" proqramından keçməli, eləcə də fənn kompetensiyasını 10 kreditlə təsdiq etməli idilər.



Müəllim olmaq istəyənlər isə baş müəllim statusunu fənn imtahanını verməklə və 60 kreditlik proqramdan keçməklə qazana bilərdilər.

"Axtaran" pedaqoqlar və müəllimlik istəyi olanlar baş müəllim statusunu qazanmaq üçün yenidən eyni yolu keçməlidilər.

Baş müəllim statusu təhsil istiqamətində, yaxud məktəbdə tədris etdiyi həmin fənn üzrə doktor dərəcəsi olan şəxslərə imtahan və kreditlərin toplanmasından kənar verilirdi.

Köhnə sxemə əsasən, aparıcı statusu qazanmaq üçün bir neçə yol mövcud idi:

Aparıcı müəllim statusunu qazanmaq üçün baş müəllim 19 kredit toplamaq məcburiyyətində idi. Onlar pedaqoji təcrübə araşdırması həyata keçirdilər və araşdırmanın nəticələrini həmkarları ilə bölüşürdülər (2 kredit);

Sonra kənar müşahidəyə keçirdilər (4 kredit);

2 model dərs keçirdilər (hər dərsə 1 kredit);

Əlavə fəaliyyət/fəallıqlar həyata keçirirdilər.

Eləcə də təhsil istiqamətində doktor dərəcəsi olan və ümumtəhsil müəssisəsində həmin fənni tədris edən pedaqoqa da aparıcı müəllim statusu verilirdi.

Yeni sxemə görə, bütün pedaqoqlar statusunu yüksəltmək üçün bərabər şəraitdədir və aparıcı və mentor statusu qazanmaq üçün doktor dərəcəsinə əhəmiyyət verilmir.

Yeni sxemə əsasən necə aparıcı müəllim ola bilərsiniz?

İlk növbədə pedaqoq, əgər aparıcı statusu qazanmaq istəyirsə, fənn imatahanını ən azı 50% nəticə ilə vermiş olmalıdır. Baş müəllim statusu imatahanında 7-dən az kredit toplamış və aparıcı olmaq istəyən müəllimlər fənn imtahanını yenidən verməli və nəticələri yaxşılaşdırmalı olacaq. Bundan əlavə, pedaqoq ixtisas imtahanını uğurla verməlidir, yəni tətbiq edilmiş keçidi aşmalıdır. Sonra isə o, təcrübə baxımından qiymətləndiriləcək. Baş müəllim yenidən kənar müşahidədən, dərsdən sonrakı refleksiyadan keçməli olacaq, statusu qaldırmaq üçün bəndlərdən biri ictimaiyyət üzvləri ilə söhbət aparmaq və portfolionun qiymətləndirilməsidir.

Əgər pedaqoq ümumi qabiliyyət imtahanının verilməsindən 3 il ərzində təcrübə qiymətləndirilməsindən keçməzsə onun imtahan nəticəsi sıfırlanacaq və aparıcı müəllim statusu qazanmaq üçün ümumi qabiliyyət imtahanını yenidən verməli olacaq.

Mentor müəllim statusu qazanmaq üçün isə müəllim sonrakı fəallıqları həyata keçirməli idi: Aparıcı müəllim mentor statusu qazanmaq üçün 25 kredit toplamalı idi. Mentor statusu qazanmq üçün aparıcı müəllim:

- Ən azı 4 model dərs keçirdi (hər dərs 1 kredit);
- Təhsil müəssisəsinin ehtiyaclarını araşdırırdı və araşdırma nəticəsinə əsasən həmkarları ilə təcrübəsini bölüşmək məqsədi ilə iş görüşləri keçirirdi (3 kredit);
- Təhsil resursu yaradırdı (1 kredit), məqalə hazırlayırdı (1 kredit), yaxud metodoloji ədəbiyyat (2 kredit) yaradırdı. Bu istiqamətdə müəllim ümumilikdə ən azı 2 kredit toplamalı idi;
- Eləcə də əlavə fəaliyyətlər/fəallıqlar həyata keçirirdi.

Yeni sxemə əsasən isə, müəllimlər sonrakı yolla mentor statusu qazanacaqlar:

Aparıcı müəllim fənn imtahanını 50% nəticə ilə verərsə mentor ola bilər. Əks halda aparıcı müəllim mentor olmaq üçün fənn imtahanını təkrar verməli olacaq.

Mentor müəllim statusu qazanmaq üçün aparıcı müəllim kompleks dəyərləndirmədən keçməlidir, dəyərləndirməni əhatə edir:

- Mentor müəllim statusu üçün müvafiq peşə bacarıqları imtahanının verilməsi;
- Müəllimin təcrübəsinin qiymətləndirilməsi;
- Kənar müşahidəni və müəllimin tematik vahid çərçivəsində həyata keçirdiyi dərsin sonrakı refleksiyası (özünüqiymətləndirmə);
- Məktəb ictimaiyyət üzvləri ilə söhbət etmək (müsahibə) və portfolionun qiymətləndirilməsi.

*Mənbə: etaloni.ge*

*Səhifəni hazırladı: Aynurə ƏLİYEVA*

# EYNİ ÖLKƏNİN BƏRABƏRHÜQUQLU VƏTƏNDAŞLARI

## "Qızım sənə deyirəm, a gəlnim sən eşit"



Amerikadan tutmuş Hindistana kimi dünyanın bir çox ölkələrində olmuşam, Azərbaycan qədər ikinci bir tolerant ölkəyə rast gəlməmişəm. Bu yaxınlarda Azərbaycan vətəndaşı ancaq milliyətcə rus olan bir nəfərin video-çarxı sosial şəbəkələrdə yayılmışdı. Video-çarxda qeyd edir ki, "bu gün bizim xalqımız öz torpaqlarını işğaldan azad etmək üçün Vətən müharibəsi aparır, mən rusam, Azərbaycan vətəndaşıyam, mənim kimiləri ölkədə minlərlədir. Ölkəmizdə çoxlu rus dilli məktəblər var, Slavyan Universiteti var, Rus Dram Teatrı var, çoxlu provoslav kilsələri, rus icması, rus diasporası var. Biz hamımız Azərbaycanın vətəndaşıyıq və biz hamımız cəbhəyə yollanıb ÖZ TORPAQlarımızı azad etməyə hazırıq. Qarabağ Azərbaycandır". Nədir bu insanı bu qədər səmimi çıxış eməyə məcbur edən?

Azərbaycan çoxmillətli, çox konfessiyalı ölkədir, multikulturalizm dövlətin siyasətinin əsasını təşkil edir. Ölkənin prezidenti, baş naziri və ya hansısa yüksək rütbəli şəxsləri "etnik azlıq"lar yaşayan bölgəyə səfər edəndə rəsmi çıxışlarında "tarixi vətəniniz Rusiyadır" deyib onlara qonaq gözü ilə baxmırlar. "Burada müvvəqətisiz", "Azərbaycan azərbaycanlılarındır" demirlər. Anadan olduğu, böyüyüb boya-başa çatdığı yurdda ögey, yad münasibət bəslənilmir. Virusun insanları qorxuya saldığı, psixoloji mənfi təsiri ərəfəsində DÖVLƏT ölkədəki digər millətlərin nümayəndələrinə virusdaşıyıcısı kimi baxmağa imkan vermir, vəzifə, söz sahiblərnin onları təhqir etməsinə şərait yaratmır.

Videoda çıxış edən rusdur, Qarabağ məsələsində Rusiyanın rolunu gözəl bilsək də, rus xalqına qarşı ölkədə mənfi fikir formalaşdırılmır. Göründüyü kimi, ölkədə rus dilində orta məktəb, universitet, kilsə və s. fəaliyyət göstərir. Prezidentin sərəncamı ilə 2016-ci il ölkədə "Multikulturalizm ili" elan edilir, il boyu ölkədə yaşayan müxtəlif millətlərin mədəniyyətləri təbliğ edilir, təkcə "Multikulturalizm ili" çərçivəsində deyil, bunu ilin dörd fəslində müxtəlif illərdə də müşahidə etmək olar, çünki multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olmuş və dövlət də bunun daha da möhkəmlənməsində mühüm rol oynamışdır. Dövlət ölkəsində yaşayan müxtəlif millətlərin nümayəndələrinə Azərbaycanın bərabərhüquqlu vətəndaşları olmasını hiss elətdirir.

Və budur VƏTƏNnin dar günündə ölkədə yaşayan müxtəlif millətlərin nümayəndələri səfərbər olmuşlar, can-başla könüllü cəbhəyə getmələrini dilə gətimişlər. Çünki onların hamısını bir vətən – Azərbaycan birləşdirir, Qarabağlı bütöv Azərbaycan.

8 may 1992-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə şəhid olan, Azərbaycanın Milli qəhrəmanı əslən yəhudi olan Albert Aqarunov da VƏTƏNi Azərbaycan uğrunda hər şeyə hazır olduğunu söyləmişdir. Keçən il onun şərəfinə Bakıda böyük bir heykəl ucaldıldı, oxuduğu məktəbə onun adı verildi, Bakı küçələrindən biri də onun adını daşıyır.

Milli qəhrəmanlara heykəl ucaltmaq... paradoks deyim, yoxsa ki faciə... 90-cı illərdə Baqramyan erməni batalyonu Abxaziyada gürcülərə qarşı etnik təmizləmə apardı, Ənvər Hümbətov kimi azərbaycanlılar isə könüllü olaraq cəbhəyə yollanıb Gürcüstanın ərazi bütövlüyü uğrunda həlak oldular. Keçən il Axalkalakidə məhz 20 Yanvar tarixində Qarabağ və Abxaziyada dinc sakinləri qanına qəltan edən Avakiyanın bərpa edilmiş büstünün təntənəli açılışı oldu. Amma Abxaziyada Gürcüstanın ərazi bütövlüyü uğrunda döyüşən, 30-a yaxın insanı xilas edib qəhrəmancasına həlak olan Ənvər Hümbətovun adını daşıyacaq heç nə yoxdur... Ədalətin bərpa edilməsi ümidi ilə...

**Aygül İSAYEVA**
İqtisadiyyat üzrə fəlsəfə doktoru

*AFİQ MUXTAROĞLUNUN AYAQÜSTÜ DÜŞÜNCƏLƏRİ*

# HƏYAT ADLI FİLMDƏN KADRLAR

İş yerimiz üç-dörd mərtəbəli köhnə binanın alt qatında yerləşir. Böyük düzbucaqlını andıran bu məkanın perimetr boyunca ön və sağ tərəfi böyük şüşələrlə örtülüdür. Böyük ekrandan həyat adlı filmi seyr edirmiş kimi bu şüşələrin arxasından küçənin qarşında açılan qarğaşasını, rəngli mənzərələrini, ötüb keçən adamlarını, ağıllısını-dəlisini ovuc içi kimi görə bilirsən.

Sanki şüşənin o tərəfindəkilər başqa dünyanın adamlarıdır və ya yadplanetlilərdir. Şüşələr səni o başqa dünyadan ayırır. Bu böyük şüşələr elə əslində müxtəlif dünyaların sərhədi kimidir. Nədən ki, şüşənin o üzündəkilər bəzənib-bərtənmişlikləri ilə, qayrıq-quyruqları ilə, təşəxxüsləri ilə başqa dünyanın varlıqları kimi görünürlər. Üst-başımızın toz-torpaq, sement, boya, yapışqan ləkələri yəqin şüşə ekranın o tərəfindəkiləri bizim haqqımızda eyni cür düşündürə bilər, məsələn, onlar bizi əcaib məxluqlara, nağıllar aləmindən çıxmış hər çətinliyi yenən fövqəltəbii personajlara bənzədə bilərlər. Bu da onların haqqı. Onların necə düşünməsinə düzəliş verməyə, müdaxilə etməyə də haqqımız yox.

Qarşımdan keçən ağ, qara, sarı irqin nümayəndələri, ağsaç qocalar, güləruz uşaqlar, qapalı müsəlman qadınlar heç vaxt baş rolun ifaçısı ola bilməyəcəklərinin fərqində imiş kimi, öz epizodik rollarını oynayaraq bir anda kadrdan çıxırlar.

Hardansa yüksələn anlaşılmaz musiqi, bir-birini əvəz edən küçə musiqiçilərinin – şarmankaçıların, saksafonçuların, akardeonçuların ifaları həyat adlı filmə yazılmış musiqini xatırladır.

Kafelər, restoranlar, *əl iyi* kimi fırlanan qarsonlar, mağazaların gözqamaşdırıcı işıqları, müştəri tutmaq üçün səkilərə çıxardıqları rəngbərəng paltarların gözəgəlimli yerinə endirim qiymətləri asmış satıcılar, mənim kimi görünmək istəyirsinizsə mesajı verən, gözəllik salonunun önünə yapışdırılmış böyükölçülü sığallı pişiyə bənzəyən sarışın qadın portreti, bu anı ömürləri boyu unutmayacaqları hər hallarından bəlli dondurma yeyən sevgililər, velosipedlə ötüb keçənlər, qəhqələri ilə dünyanı heyrətləndirmək istəyən qrup – bütün bunlar şüşənin o üzündəki dünyanın özgəliyini, fərqliliyini anladırdı.

Mənim və mənim kimilərin o dünya ilə qaynayıb qarışmasına, o dünyanın bir parçasına çevrilməsinə mane olan nələrsə var. Bu "nələrsə"nin təkcə şəffaf şüşədən ibarət olmadığını da ağlım kəsir.

Şəffaf şüşənin mənim də içərisində olduğum bu üzü başqa bir dünya idi. Deşən, kəsən, dağıdan, qarışdıran elektrik iş alətlərinin hay-harayı, kəsilən daşdan, metaldan yüksələn tükürpəşdirici səslər. Bu tükürpəşdirici səslər cansız daşların, müxtəlif metalların bəlkə də sındırılmağa, bölünməyə qarşı üsyanları idi. Biz hələ öz insan dilimizi düz-əməlli bilmirik, o da ola cansızların dilini anlamamız.

Tavana qədər qalxan toz buludu arasında çalışanlar ruha, kölgəyə bənzəyirlər və ya onların belə görünməsi mənim beynimin məhsuludur.

...Mən bir gözüm küçədə, küçədə baş verənlərdə, elektrik alətlərilə çalışmağımda. Arada özümə: "Müəllim, bu sənə qələm-kağız deyil, bilgisayarın düyməsi də deyil ha, ehtiyatlı ol", - deyə xatırlatmağı da unutmuram. Nə gizlədim, hərdən mənim özümə belə təpinməyim, gözağartması verməyim, hətta özümü danlamağım da olur...

Ata-analarıyla gəzintiyə çıxan əl boyda uşaqların dayanaraq, ikiüzlü ekranın – şüşənin o tərəfindən məsum gözlərilə içəri baxmaları, içərinin timsalında yeni bir dünya kəşf etmələrini bütün hərəkətləri ilə valideynlərinə anlatmaq istəmələri filmin ən gözəl kadrlarındandır.

Şüşənin biz olan tərəfində baş verənləri inadla yaddaşına köçürmək istəyən, bunun üçün əllərini gözlərinə günlük edib, sifətlərini şüşəyə yapışdıran qocaların qırış basmış üzləri işığın təsirilə əyiş-üyüş olur. Onların görünüşü naşı rəssamın çəkdiyi komikslərə bənzəyir. Beş addım aralandıqdan sonra gördüklərini xatırlamaq və ya kiməsə danışmaq üçün yaddaşlarını qurcalamalı olacaqları da bəlli.

Arxa fonda deyək, iş yerimizin on-on beş addımlığında yerləşən kilsə zənginin həyacanlı səslənişi mənə mistik nələrisə anladır. Deyək ki, dünyanın gəldi-gedərliyini, ömrün qısalığını və ya dünyanın bir imtahan yeri olmasını. Qırmızı kərpicdən tikilmiş, görünüşündən çox da qədim olmadığı bilinən,



baxımlı kilsə öz əzəməti ilə göylərə gedən yolu, haqqın olduğu yeri insanlara nişan verirmiş kimi dayanıb. Allahın evinə isə nə girən var, nə çıxan. Gələn-gedən gözə dəymir. Bəlkə koronovirusa görə mərasimlərə ara verilib?

Sonuncu zəvvarı çoxdan getmiş məbədi andıran kilsə özünün axşam zəngini çalır. Deməк ki, saat yeddi. Kilsə zənginin bu səsi filmin bir bölümünün başa çatdığını bildirən rəmzi işarəyə dönüşür.

Yeni bölümləri birlikdə yaşamaq ümidiylə.

**Afiq MUXTAROĞLU**
Almaniya

# İOSİF QRİŞAŞVİLİNİN “QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI” ƏSƏRİNDƏN BİR PARÇA

## AMKROBA (HƏMKARLIQ)

*(əvvəli ötən sayda)*

Məgər ustabaşının vəzifəsi yalnız şillə vurmaqdan ibarət idi? Məgər kef məclisi həmkarların bu möhkəm adətinin yeganə mənasımı idi? Bu, belə olardısa, onda şilləni də və kef məclisini də unuda bilərdik. Lakin biz hər halda bu adətləri xatırlayırıq. Xatırlayırıq ona görə ki, adətlərin bütün bu kompleksi mürəkkəb hadisədir ki, bunun da əsasında insanın vəzifəsini özünəməxsus başa düşməkliyi və özünəməxsus mənəviyyatı durur. Bizim düşüncəmizdə nəsə kobud fiziki aktın təsəvvürünə səbəb olan “şillə”dən öncə öz dərinliyi ilə dini ekstazın yüksəkliyinə qədər gedən “xeyir-dua” gəlirdi.

Bax, bu xeyir-dua da:

*“Öz alın təri ilə öz çörəyini qazan. Tanrı hamını canlı yaradanda, buyurdu, öz əməyinlə, xidmətinlə dolan.*

*Çılpaq torpağın üzü də əməklə örtüldü, şənləndi və münbitləşdi.*

*Tanrı sizin əlaltılarınza qarşı həsədi və bədhaxlığı uzaq eləsin.*

*Biz hamımız ölümə məhkumuq, biri gedir, o birisi gəlir.*

*Bütün yaxşı sənətkarlar öləndə öz biliyini də özü ilə aparsaydı bu dünya nəyə bənzəyərdi? Bizə oturub üz-gözümüzü cırmaqdan savayı heç nə qalmazdı. Lakin Tanrının köməyi ilə bizim babalarımızın malik olduğu biliyə yiyələndik. Bizim hər birimiz nəyi biliriksə başqasına ötürməyə borcluyuq.*

*Şəyird öz böyüyünə qarşı itaətkar və üzüyola olmalıdır. Öyrənmək və tövsiyə yalnız itaətkarlıqla əldə edilir!”*

Xeyir-duanın son sözləri belə idi:

*“Və sən, itaətkar, vicdanlı şəyird! Bu gündən sonra sənətkar adını daşıyırsan və sənə öz əllərinin əməyi ilə yaşamaq hüququ verilir. Müdrik Süleymanın özü, peyğəmbərlər, həvariyyunlar və bütün müqəddəslər moizə edirdilər ki, insan yalnız halal əməyi ilə yaşamalıdır... Və sən də, ey şəyird, indi bizim peşə yoldaşımız olan zaman halal əməyinlə özünü dolandırmaq üçün canını və qüvvəni əsirgəmə. Aman, nə badə, nə badə əyri-üyrü yolla gedəsən. Ürəyi təmiz və halal ol. Öz uşaqlarını da bu yolla aparmağa cəhd eylə. Öz şəyirdlərinə də halal əməyi öyrət və bizim sizə qarşı davrandığımız kimi, sən də şəyirdlərinlə elə davran ki, o dünyada İsa peyğəmbərin qarşısında alnıaçıq dayanasan və sorğu günü sərbəst olaraq etiraf edəsən: Ey Tanrı, budur, biz həyatımızın günlərini halallıqla keçirən şəyirdlərimizlə gəldik. Ey Tanrı! Cənnətin qapısını aç və bizi Cənnətdə rahatla. Amin!”*(Л.П.Загурский: “Записки Кавк. отдела русск. географ. об-ва”, VIII kitab, 1873-cü il, səh. 26).

***

Sənət əməkdən, təhrikedici metoddan başqa, eləcə də fərdi istedadın və təbii instiktin lazım gəldiyi sahə idi. Bəzən şəyird öz ustadından üstün olubdur ki, bu da çox hallarda düşmənçiliyə gətirib çıxarıb. Usta ilə şəyird arasında bir rəvayət yadıma düşür. Gözəl Xertvisi qalasının iki böyük şərq və qərb qülləsi olub. Qüllələrin inşası hadisəsini xertvisililər belə nəql edirlər: Çariça Tamara iki bənnaya iki qüllənin inşasını əmr edir. Biri usta olur, o birisi onun şəyirdi. Usta şərq qülləsini, şəyirdi isə qərb qülləsini inşa etməli idi. Çariça kim gözəl və qəşəng qüllə inşa edərsə onu bolluca mükafatlandıracağına söz verir. Usta və şəyird canfəşanlıqla işə girişirlər. Sənətkarlar hələ işlərini başa çatdırmamış camaat bağırışmağa başlayır: şəyirdin tikdiyi ustanın tikdiyindən üstündür. Doğrudan da şəyirdin inşa etdiyi qüllə çariçanın daha çox xoşuna gəlir və elə irəlicədəncə sənətkarı bolluca mükafartlandırır. Usta qəzəblənir, fürsət tapır və şəyirdi qüllənin başını inşa edəndə onun ayağının altından pilləkanı götürür. Şəyirdi nə edə bilərdi? Pilləkənsiz aşağı düşə bilmədiyindən yuxarı qalxır, bir-iki qalmış taxtadan qanadlar düzəldir, baltanı belinə bağlayır və Cavaxetidə Kürün sağ sahilinə uçur. Qərb qülləsindən bu məsafə hər halda iyirmi sajendir. Yerə elə yöndəmsiz düşür ki, balta ilə yaralanır və dünyasını dəyişir. Bu yeri xertvisililər indi də tələfat yeri adlandırırlar (A.Proneli: “Şanlı Mesxeti”, Yason Kereselidzenin nəşri, 1914-cü il, səh. 162).

Usta ilə şəyird arasında bu cür həsədliliyin nümunələrindən biri Msxeta məbədinin divarının üzərində də varımızdır. Şimala doğru insanın qaya parçasını tutduğu kəsilmiş əli heykəlləşdirilib. Rəvayət bizə nəql edir ki, Samtavronu (Orta əsrlərdə dövlətin bir hissəsi – M.M.) inşa edən memarın şəyirdi Msxetanı inşa etdi, lakin ustadı ona həsəd apardı və deyilənə görə, cəsarətli hərəkət edən şəyirdin əlini kəsiblər.

Bir xalq şeirində deyilir:

**“Xekordzula suyunu içmişəm,**
**Msxetanı elə inşa etdim,**
**Tutdular, əlimi kəsdilər,**
**Ona görə ki, yaxşı inşa etmişəm”...**

(T.Jordania: “Xronikləр”, birinci kitab, 1893-cü il, səh. 155-6).

Bu iki nümunə aydın şəkildə onu göstərir ki, şəyird ilə usta arasında paxıllıq ta qədimdən mövcud olub. Buna görə də xeyir-dua zamanı ustaya deyirdilər: *“Tanrı sənin əlaltına qarşı olan həsədi və düşmənçiliyi uzaq eləsin”*.

Buna baxmayaraq, həmkarlar arasında çəkişmə və aralı düşmə halları mövcud deyildi və həmkarlar ailəsi kifayət qədər möhkəm təşkilat idi. Birləşdirici məhlul o qədər güclü idi ki, həmkarlar bəzən mütəşəkkil şəkildə çıxış etməyə də nail olurdular. Məsələn, 1865-ci ildə yeni vergilərin tədbiqi zamanı bu yeni mülki həyatın yeni qonağına Tiflis amkrobası qiyamla cavab verdi.



On mindən artıq insan daşlarla silahlanaraq (Bütün üsyançıların çuxasının ətəkləri Çaylığın çınqıl daşları ilə dolu idi) küçələrə çıxdılar. “Bütün şəhərdə dükanlar bağlandı, drojka sürənlər birjanı tərk etdilər, “povoska”çılar (dörd təkərli üstü çadırlı araba - M.M.) gizləndilər, tuluqçular su daşımağı dayandırdılar və bütün şəhər Xocavənkə, Bebutovların qəbiristanlığına yığıldı ki, burada da hökumətə qarşı mitinq keçirildi (İona Meunarqia: “Moambe” (“Xəbərçi”), 1904-cü il, № V, II hissə, səh. 4). Həmkarların camaatı təhrik edən və qiyama doğru çağıran öz başçıları var idi. Budur, P.Melikişvilinin xatirəsində rast gəldiyimiz bir məlumat: *“Bilmirəm niyə, –* mərhum professor bizə nəql edir, – *bu durum məni də maraqlandırırdı, bir yoldaşımla birlikdə Xocavənk qəbiristanlığı təpəsinə gedə bildim. Bir gənc vətəndaş sənətkarın sözü yadıma düşür. O deyirdi ki, biz bu böyük vergilərin tələblərinə razılaşmamalıyıq”*(Professor P.Melikişvili: “Mənim xatirəm”, bax: “Gürcü ədəbiyyatı”, 1927-ci i, №5, səh. 147).

Hökumət xoflandı. Şəhərlilərə kəndlilərin kömək etməsindən qorxurdu. *“Təcili Qarabulaqdan bir neçə batalyonu çağırdılar, Xramidən kazakları, Mudavanidən toplar gətirdilər və Avlabarın hər iki körpüsündə Tatar meydanının üst yanına, polis idarəsi yaxınlığına, Kukiya körpüsü yaxınlığına və Çuqureti yaxınlığına qoşun yeritdilər”.*

Bir rus məmuru öz xatirəsində bu “bunt” barəsində belə nəql edir: *“Şəhəri qəflətən böyük həyəcan bürüdü. Səs yayıldı ki, guya şəhər sakinlərinin üzərinə qeyri-adi vergi qoyulmuşdur. İlk hərəkət həmkarlar arasında baş verdi, sonra dəhşətli dərəcədə sürətlə bütün şəhəri bürüdü. Camaat qəbiristanlığa, meydanlara, küçələrə toplaşırdılar. Hay-küy salırdılar, hədələyirdilər, bağırırdılar və qışqırırdılar”* (“Воспоминания Андрея Михайловича Фадеева”, Одесса, 1897-ci il, II hissə, səh. 245).

Lakin bu “çığırtı-bağırtını” tezliklə sakitləşdirdilər... Çoxunu tutdular, çoxunu da sürgün etdilər.

Əgər düşünsək ki, sənətkarlığın təsiri ilə mübarizə və ya silah gəzdirmək qabiliyyəti onların içində boğulurdusa, həmkarlıq və həmkarlar barədə saxta təsəvvürümüz olar, əksinə, tarixi nümunələr bizə göstərir ki, gürcü çarları kimi, eləcə də Gürcüstanın sonrakı dövrünün iqtidarları həmkarlara bir mübariz qüvvə olaraq, ələlxüsus, işin Tiflisin müdafiəsini tələb etdiyi zamanlar tez-tez müraciət ediblər.

*“Həmkar gürcü çarları zamanı şəhərin yerli qarnizonunu təşkil edirdi ki, bu da düşmənin hücumlarından onu qoruyurdu. 1803-cü ildə Gəncə qalasının alınması zamanı gürcü qoşunları ilə birlikdə Tiflisin amkrobası da iştirak edirdi. 1826-cı ildə həmkarlar qeyri-müntəzəm əsgərlərlə birlikdə Naftulluq qarnizonuna keşik çəkirdilər. 1854-cü ildə isə osmanlılarla müharibə zamanı general Read tərəfindən başqa vətəndaşlarla birlikdə Tiflis amkrobası da dəvət olunmuşdu və bu camaat tamamilə silahlanaraq yekdilliklə özlərini yetirmişlər”* (К.Г.Иерусалимский “Ювелир индейского царя. Ованес Ага или любовь отца к сыну и на оборот”, Тифлис, 1866-cı il, səh. 9-10).

Bəzi rus məmuru amkroba institutuna qarşı idi, çünki amkroba ətrafında birləşən xırda ticarət demək olar ki, monopoliya hüququndan istifadə edirdi (“Акты”, XI cild, səh. 875-876). Artıq 1849-cu ildə quberniya idarəsinə amkrobanın ləğv edilməsi barədə ərizə daxil etdilər, lakin tez-tez yerli adət-ənənələri səylə müdafiə edən Vorontsov bu çox qədim olan təşkilatın birdənbirə yox edilməsini istəmədi. *“Onlar bizi narahat etmirlər, öz üzvlərinə yardım edirlər, amkrobanın öz mənfi cəhətləri də ola bilər, lakin əsrlər boyu mövcud olan bu müəssisəyə hər hansı bir dəyişikliklərin əlavə olunması hələ tezdir. Onların adətlərində, onların quruluşunda o qədər yaxşı cəhət vardır ki, bu yaxşılıqlar onların əyər-əskikliklərindən daha çoxdur”* (Ю.Ахвердов: “Тифлисские Амкары”, 1883-cü il, səh. 31).

Buna baxmayaraq amkroba bizim vaxta qədər hər halda gəlib çıxdı, halbuki, ilkin simasını itirdi. Nəhayət o dövrkü hökumətin qərarı ilə bütün sahələrin həmkarlarını birləşdirdilər və şəhərin sənətkarlar idarəsinə yerləşdirdilər.

*(ardı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

## OKTYABRDA İDXAL 23,5%, İXRAC İSƏ 2,2% AZALIB




Milli Statistika Xidmətinin hesabatına əsasən, cari ilin oktyabr ayında Gürcüstana idxal 23,5% azalıb və 706 milyon ABŞ dolları təşkil edib. Azalma ölkədə olan iqtisadi böhranla əlaqəlidir. Böhrana görə əhali də, biznes sahələri də xaricdən daha az məhsul alır.

İxraca gəldikdə isə, məlumata əsasən, oktyabrda 312.6 milyon ABŞ dolları təşkil edib. Bu, 2019-cu ilin analoji dövrünün göstəricisi ilə müqayisədə 2,2% azdır.

Ümumilikdə 10 ayın nəticələri 2.7 milyard dollar təşkil edib. Bu isə 2019-cu illə müqayisədə 11% azdır. İdxal isə 16% azalıb və 6.4 milyard dollar təşkil edib.

*Mənbə: bm.ge*

## HÖKUMƏT GƏLƏN İL ÜÇÜN İQTİSADİ ARTIM PROQNOZUNU AZALDIB



"Gürcüstanın 2021-ci il üçün dövlət büdcəsində ölkədə iqtisadi artım proqnozu 4,3% müəyyən edilib". Bu barədə ölkənin maliyyə naziri İvane Maçavariani bildirib.

Nazirin sözlərinə görə, əvvəlcə gələn il üçün 5%-lik iqtisadi artım proqnozlaşdırılsa da, koronavirus pandemiyasının güclənməsi proqnoza yenidən baxmaq zərurəti yaradıb.

O, büdcənin yenilənmiş versiyasının noyabrın 30-na qədər parlamentə təqdim olunacağını da qeyd edib.

## ABŞ GÜRCÜSTANA MALİYYƏ YARDIMINI ARTIRIB



Gürcüstanın xarici işlər naziri David Zalkaliani bildirib ki, "son 4 ildə ABŞ-ın Gürcüstana maliyyə yardımı 50 milyon dollar artıb".

Nazirin sözlərinə görə, ABŞ-ın 2020-2021-ci illər üzrə büdcə layihəsində Gürcüstana 132 milyon dollar həcmində maliyyə yardımının ayrılması nəzərdə tutulub.

XİN başçısı həmin sənəddə Gürcüstanın ərazi bütövlüyünə dəstəyin də ifadə olunduğunu qeyd edib.

"Qanun layihəsi Gürcüstanın ABŞ-ın xarici siyasətinin gündəliyində vacib istiqamətlərdən biri olduğunu təsdiq edir", - deyə nazir bildirib.

## GÜRCÜSTANIN QONŞU ÖLKƏLƏRƏ NƏ QƏDƏR BORCU VAR?



Gürcüstanın Maliyyə Nazirliyinin hesabatına əsasən, bu ilin oktyabr ayında Gürcüstanın Azərbaycana borcu dəyişməyərək noyabrın 1-nə 5,685 milyon ABŞ dolları təşkil edib.

Sənədə əsasən, oktyabrın sonuna Gürcüstanın ümumi xarici dövlət borcu 7 milyard ABŞ dolları olub. Bunun 6,7 milyard ABŞ dolları hökumətin payına düşür.

Ötən ay Gürcüstanın digər qonşuları – Türkiyə, Rusiya və Ermənistana da borcu dəyişməyərək müvafiq olaraq 10,959 milyon ABŞ dolları, 43,134 milyon ABŞ dolları və 5,954 milyon ABŞ dolları qalıb.

## QARA DƏNİZİN YENİ LİMANI – ANAKLİA



Gürcüstanın 2014-cü il əhalinin ümumi siyahıyaalınmasına əsasən, Anaklia - əhalisi cəmi 1,331 nəfərdən ibarət olan Qara dəniz sahilində yerləşən kiçik bir qəsəbədir. Coğrafi baxımdan Anaklia şimaldan İnquri çayı, cənubdan isə Kolxeti Milli Parkı ilə həmsərhəddir. Bu isə onun hər il turistlərin Qara dəniz sahilində gözəl vaxt keçirməkləri üçün üz tutduqları məkanlardan biri halına gəlməsinə, Anakliaya marağın artması isə burada yeni infrastruktur və inşaat işlərinin artmasına səbəb olurdu. Ancaq Gürcüstan bununla kifayətlənməyərək 2016-cı ildə Anaklia-da geniş dəniz limanının tikilməsinə qərar verdi. Bu yeni layihə Gürcüstan-ABŞ birgə təşkilatçılığı ilə qurulan Anaklia İnkişaf Konsorsiumu tərəfindən dəstəklənərək 2017-ci ilin dekabr ayında inşaat işləri görülməyə başlanıldı. Limanın tam hazır olduqdan sonra 10 000 ədəd gəmi və terminal konteynerlərini qəbul etmək gücündə olacağı bildirilir. Ekspertlərin fikrincə, bu limanın məhz Anaklia-da işə başlaması Qara dəniz sahilində Gürcüstan limanlarının önəmini daha da artıracağı və ölkəyə iqtisadi baxımdan müsbət təsir göstərəcəyi gözlənilir. Düzdür, Qara dənizdə Anaklia ilə müqayisədə Gücüstanın daha böyük və uzun illərdir ki, fəaliyyət göstərən Batumi, Poti kimi liman şəhərləri vardır, ancaq onu da unutmamaq lazımdır ki, Qara dənizdə təkcə Gürcüstanın deyil, Türkiyə, Bolqarıstan, Ukrayna və Rusiyanın da önəmli limanları fəaliyyət göstərməkdədir. Bu daimi davam edən rəqabət şəraitində Gürcüstanın bu limanlarını ilk sırada görmək doğrudan da təqdirəlayiqdır.

Sözsüz ki, bu limanlar sadəcə ölkəmiz və region ölkələri üçün deyil, qlobal miqyasda da ticarət yoluna çevrilmə potensialına sahibdirlər. Bu barədə Gürcüstanın sabiq iqtisadiyyat naziri Giorgi Kobulia 2018-ci ildə Anakliada baş tutmuş limanın dəniz inşaat işlərinin rəsmi açılış mərasimində bildirmişdir. Onun sözlərinə görə, Anaklia layihəsi Gürcüstanın iqtisadi inkişaf perspektivi baxımından iki ən mühüm məqsədə xidmət edir – bunlardan biri Gürcüstanın coğrafi mövqeyindən faydalanaraq ölkəni qlobal ticarət yolları üçün logistik məkana çevirmək, digəri isə "Dəniz Ölkə" modelini formalaşdırmaqdır.

Ölkəmizin limanlara daha çox diqqət yetirməsinin birbaşa və dolayı səbəblərindən biri də Çinin dünya üzrə reallaşdırmağa çalışdığı "Bir kəmər, bir yol" meqalayihəsidir. Digər bir adı Yeni İpək Yolu olan bu meqalayihə haqqında onu deyə bilərik ki, onun əsas məqsədi Asiyanın mərkəzi ilə yol alaraq Avropaya kimi uzanan, lakin artıq süquta uğramış Qədim İpək Yolunun yenidən bərpasını və onun şaxələndirilməsini nəzərdə tutur. Çin rəhbərliyi bu layihə çərçivəsində indiyədək dünyanın 130-dan çox ölkəsində müxtəlif logistik mərkəzlərin və infrastrukturun qurulması üçün 300 milyard dollar həcmində vəsait xərcləmişdir. Çindən başlayacaq bu ticarət yolunun Cənubi Qafqazdan və Qara dənizdən keçməsi artıq çinli rəsmilərlə də baş tutmuş görüşlərdə təsdiqlənmiş (Gürcüstanın tərəfdaşlığı da həmçinin) və bu məsələ ilə bağlı qarşılıqlı razılıq əldə edilmişdir. Yeni İpək Yolu layihəsinin tərəfdaş ölkələrə, ümumilikdə, təxminən 3 trilyon dollara yaxın gəlir gətirəcəyi güman edilir.

Anaklia limanının 2020-ci ilin sonlarına yaxın fəaliyyətə başlayacağı gözlənilir. Limanın tam gücü ilə işə salınmasından sonra burada azad iqtisadi zonanın da qurulması istisna edilmir. Çünki hələ 2011-ci ildə Gürcüstan prezidentinin təşəbüsü ilə Anakliadan elə də uzaqda olmayan ərazidə yeni Lazika şəhərinin salınması ideyası irəli sürüldü. Yeni qurulacaq şəhərin eyniylə azad zonalarda olduğu kimi xüsusi hüquqi statusunun olacağı və yerli vergi sistemindən fərqli olaraq İngiltərə qanunvericiliyinə uyğun modelin qurulması nəzərdə tutulmuşdur. Ancaq hökümət dəyişikliyindən sonra bu ideya təxirə salındı. Ekspertlər hesab edirlər ki, həmin bu model yaxın gələcəkdə Anaklia limanına tətbiq edilə bilər.

Anaklia liman layihəsinin reallaşdırılması yaxın gələcəkdə Qara dəniz sahilində Gürcüstanı iqtisadi baxımdan möhkəmləndirəcəyi və regionda gələcəyin ilk "Dəniz şəhər" tipli yaşayış məntəqəsi olacağı güman edilir.

**Səlahəddin PİRİYEV**
**Tbilisi Dövlət Universitetinin İqtisadiyyat və Biznes fakültəsinin tələbəsi**

İCTİMAİ QƏZET yeni_yol@mail.ru ივნი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 NOYABR 2020-Cİ İL №016 (120)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## KİMLƏR 4 AY ƏRZİNDƏ QAZ VƏ İŞIQ PULU ÖDƏMƏYƏCƏK?



Hökumət Gürcüstan vətəndaşlarının kommunal xərclərini ikinci mərhələdə – noyabr, dekbar, yanvar və fevral aylarında da ödəyəcək.

Kommunal vergilərlə bağlı güzəşt proqramı eyni prinsiplə həyata keçiriləcək – 200 kilovat elektrik enerjisi və 200 kubmetr qazdan istifadə edildiyi halda ödənişi hökumət edəcək. Maddi vəziyyəti yaxşı olanlar istədikləri halda bu yardımdan imtina edə biləcəklər.

Paytaxtda elektrik enerjisinin 1 kilovatın (əlavə dəyər vergisi də daxil olmaqla) dəyəri 101 kilovatdan 301 kilovata qədər 18.5555 tetridir. Bu o deməkdir ki, ay ərzində elektrik enerjisinə maksimum 37 lari ödəyən vətəndaşlar güzəştdən yararlana biləcəklər.

Təbii qaza gəldikdə isə, "Tbilisi Energy"nin ayda qaza maksimum 92 lari ödəyən abonentlərinin qaz pulu hökumət tərəfindən ödəniləcək.

Bölgələrdə isə "EnergoPro Georgia" abonentlərinin aylıq işıq pulu 36 lari olan halda hökumət tərəfindən ödəniləcək. "Socar Gas"ın abonentləri ay ərzində təbii qaz vergisi maksimum 113-114 lari təşkil edən halda güzəştdən yararlana biləcəklər.

Xatırladaq ki, hökumətin qərarına əsasən, 200 kilovatdan az elektrik enerjisi və 200 kubmetrdən az təbii qazdan istifadə edən vətəndaşların mart, aprel və may aylarında kommunal xərcləri tam ödənildi. Əhalinin kommunal xərclərinin subsidləşdirilməsi üçün 170 milyon laridən artıq pul xərcləndi. Üç ay ərzində 9600 vətəndaş bu yardımdan imtina etdi.

*Mənbə: bpn.ge*

## İCTİMAİ-SİYASİ XADİM ZÜMRÜD QURBANLI DÜNYASINI DƏYİŞİB



Gürcüstan parlamentinin keçmiş deputatı, "Qeyrət" xalq hərəkatının həmsədri Zümrüd Qurbanlı noyabrın 13-ü 57 yaşında qəfildən dünyasını dəyişib.

Qeyd edək ki, Z.Qurbanlı 1995-2004-cü illərdə Gürcüstan parlamentinin deputatı olub.

"Yeni Yol" qəzeti mərhumun ailəsinə başsağlığı verir və mərhuma Allahdan rəhmət diləyir!

## HÖKUMƏT ÖZÜNÜTƏCRİD MÜDDƏTİ İLƏ BAĞLI İZAHAT YAYIMLAYIB



Gürcüstan hökuməti Feysbuk səhifəsində özünütəcridin kimin üçün vacib olduğu və özünütəcrid müddətinin nə qədər olduğu haqda izahat yayımlanıb.

İzahata əsasən, əgər şəxsdə koronavirus aşkarlanıbsa və əlamətlər varsa, ən azı 10 gün və simptomsuz əlavə 3 gün təcriddə olmalıdır.

Əgər şəxs koronavirusa yoluxubsa, ancaq əlamətləri yoxdursa, bu halda 10 gün özünütəcriddə olmalıdır.

Virusa yoluxmuş şəxslə təmasda olan zaman 12 gün ərzində özünütəcriddə qalmaq vacibdir.

Xaricdən Gürcüstana qayıdan zaman isə təcrid müddəti 8 gündən ibarətdir.

## OKTYABRDA GÜRCÜSTANA SƏFƏR EDƏNLƏRİN SAYI 93,4% AZALIB



2020-ci ilin oktyabr ayında beynəlxalq səyahətçilərin Gürcüstana səfərlərinin sayı 52,019 təşkil edib. Bu, ötən ilin analoji dövrü ilə müqayisədə 93,4% azdır. Beynəlxalq səyahətçilərin səfəri turistik və qeyri-turistik məqsədlə həyata keçirilib.

Milli Turizm Administrasiyasının 2020-ci ilin hesabatına görə, oktyabr ayında ən çox səyahətçi Türkiyə, Rusiya və Ermənistandan gəlib. Ötən ay Türkiyədən Gürcüstana 19 minə yaxın, Ermənistandan 9 428, Rusiyadan isə, ümumilikdə, 4 346 səfər həyata keçirilib.

52 019 səyahətçidən 46 871-i kişidir. Bu isə ölkəyə edilən səfərlərin əsas məqsədinin logistika fəaliyyətlərinin həyata keçirilməsini ehtimal edir.

*Mənbə: bpn.ge*

## OKTYABRDA UCUZLAŞAN ƏRZAQ VƏ XİDMƏTLƏR



Rəsmi statistikaya əsasən, 2020-ci ilin oktyabr ayında ötən ayla müqayisədə Gürcüstanda inflyasiya səviyyəsi 0,8%, illik inflyasiya səviyyəsi isə 3,8% təşkil edib.

Milli Statistika Xidməti tərəfindən yayımlanmış məlumata görə, baza inflyasiyası 2020-ci ilin oktyabr ayında ötən ilin müvafiq dövrünə nisbətən 5,4% təşkil edib. İllik baza inflyasiyası tütündən kənar 5% müəyyən edilib.

**Oktyabr ayında ötən ilin analoji dövrü ilə müqayisədə ucuzlaşmış 10 ərzaq və xidmətlər isə bunlardır:**

- Gavalı - 24.87%;
- Şaftalı - 22.74%;
- Kartof - 11.63%;
- Dizel yanacağı - 17.84%;
- Benzin - 16.75%;
- Qaz yanacağı - 11.61%;
- Qadın şalvarı - 8.82%.
- Mehmanxana xidməti - 11.99%;
- Xaricə turist səyahəti - 11.61%;
- Təyyarə ilə səyahət etmək - 40.01%;

*Mənbə: bpn.ge*

## YIĞIM PENSİYASI ÜÇÜN 102 MİLYON LARİYƏ QƏDƏR GƏLİR KÖÇÜRÜLÜB

2020-ci ilin 13 noyabr tarixinə olan məlumata əsasən, Pensiya Fondunun dəyəri 1 milyard 77 milyon laridən artıq təşkil edib. Qeydiyyatdan keçmiş vətəndaşların sayı 1 milyon 86 mini aşıb.

Agentlik tərəfindən yayımlanmış məlumata görə, yığım pensiyasından 560 nəfər yararlanıb, həmçinin pensiya yaşının tamam olması əsası ilə 244 nəfər, həmişəlik xaricdə yaşamaq üçün getdiyinə görə 1 nəfər, məhdud fiziki imkanlı şəxs statusu əsasında 241 nəfər, varis hüququndan isə 74 nəfər faydalanıb.

"Pensiya sxeminə qoşulanların sayı hər gün artır və orta hesabla son üç ay ərzində 12 500-dən çoxdur. Pensiya yığımına artıq 102 milyon lariyə qədər gəlir köçürülüb", - deyə agentlikdən bildiriblər.

*Mənbə: bm.ge*

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.